1-1_tovuz.qxd 22.07.2016 12:32 Page 1


# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 29-30 (7461-7462) * 19 iyul 2016-cı il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik




***2016-cı ilin birinci yarısında, doğrudan da, böyük işlər görülüb. Biz bu işlərin nəticələrini gələcək illərdə görəcəyik. Bununla bərabər, ölkəmiz üçün strateji əhəmiyyət daşıyan iki istiqamət üzrə də yaxşı nəticələr var. Həm "Cənub qaz dəhlizi"nin, həm də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin icrası ölkəmizin önəmini böyük dərəcədə artıracaq. Bu layihələr Azərbaycan və bizim tərəfdaşlarımız üçün çox böyük strateji əhəmiyyət daşıyır. Çünkü, bizim coğrafi vəziyyətimiz diktə edir ki, Azərbaycan nəinki regional, dünya miqyaslı nəqliyyat mərkəzlərinin birinə çevrilməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür. Həm liman, həm Şimal-Cənub və Şərq-Qərb dəhlizləri inşa edilir. İndi bütün tərəfdaş ölkələrlə və potensial tərəfdaş ölkələrlə ciddi danışıqlar aparılır. Biz çalışmalıyıq ki, yükləri səfərbər edək və Azərbaycan ərazisindən keçən yük daşımalarının sayı artsın. Bu da ölkəmizin həm siyasi maraqlarına cavab verəcək, həm də ki, böyük mənfəət gətirəcəkdir.***

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri rayonumuzun timsalında da özünü təcəssüm etdirir

*İyulun 15-də Tovuza rayn İcra Hakimiyyətində RİH başçısı yanında geniş Şura iclası keçirilmişdir. Şura iclasında Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Məhəmmədli oğlu Zeynalov "2016-cı ilin birinci yarım ilində görülən işlər və qarşıda duran vəzifələr barədə" məruzə ilə çıxış etmişdir. Məruzədən əsas müddəaları diqqətinizə çatdırırıq.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə iyul ayının 10-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Dövlətimizin başçısı iclasda giriş və yekun nitqləri ilə çıxış edərək 2016-cı ilin altı ayı ərzində respublikamızın sosial-iqtisadi inkişafı sahəsində görülən işləri ətraflı təhlil etmiş, qarşıda duran vəzifələr barədə müvafiq tapşırıq və göstərişlərini vermişdir. Ölkə Prezidenti iclasda cari ilin altı ayında ölkəmizin xarici siyasətinin fəal olduğunu, 10-dan çox dövlət və hökumət başçısının Azərbaycana səfərə gəldiyini, özünün də xaricə səfərlərinin beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyini vurğulamışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan cənab prezident bildirmişdir ki, münaqişənin həlli bizim üçün prioritet məsələdir. Aprel döyüşləri bir daha göstərdi ki, status-kvo tezliklə dəyişdirilməlidir. Bunu artıq bu məsələ ilə məşğul olan vasitəçilər də dəfələrlə bəyan ediblər. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Əminəm ki, aprel döyüşlərinin nəticələri Ermənistan üçün dərs olacaq, onlar lazımi nəticələr çıxaracaqlar və danışıqlar prosesində konstruktiv mövqe ilə çıxış edəcəklər...Nəinki BMT, bütün digər təşkilatlar da bizim mövqeyimizi dəstəkləyir. NATO-nun Zirvə görüşündə qəbul edilmiş yekun sənəddə də Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı çox ciddi məqamlar öz əksini tapıbdır. Azərbaycanın suverenliyi, müstəqiliyi, ərazi bütövlüyü tanınır və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır.



İclasda 6 ay ərzində ölkəmizdə iqtisadi sahədə əldə olunan nəticələr geniş müzakirə olunub. Bu dövrdə sənaye istehsalının 0,6 faiz artdığını qeyd edən Cənab Prezident bildirib ki, "Düzdür o qədər də böyük artım deyil, ancaq hesab edirəm ki, bu, böhran ili üçün müsbət haldır. Ölkəmizin qeyri netf sənayesi 2,4 faiz artıb. Bu çox ciddi artımdır və hesab edirəm ki, bu artım böyük ümüdlər verir. Gələcəkdə bu daha da artacaq".

Dövlət başçısı çıxışında cari ilin altı ayında ümumi daxili məhsulun azalmasına baxmayaraq, sənaye və kənd təsərrüfatında, o cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu qeyd etmişdir. Bildirmişdir ki, ötən 6 ayda ölkə iqtisadiyyatina 6,3 milyard dollar sərmayə qoyulub və xarici investorlar üçün Azərbaycan cəlbedici ölkə olaraq qalır. İlin birinci yarısında 78 min daimi iş yeri açılıb, sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb. "2016-cı il tarixdə dərin islahatlar dövrü kimi qalacaq", - deyən dövlətimizin başçısı strateji enerji və nəqliyyat layihələrinin uğurla icrası istiqamətində tədbirlərin davam etdirildiyini vurğulamışdır. Dövlətimizin başçısı müşavirədə Azərbaycanda uğurlu inkişafın təmin edildiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, ölkə qarşısında duran vəzifələrin uğurla həll olunduğunu bildirmişdir.

**(Davamı 2-ci səhifədə)**

1-1_tovuz.qxd 22.07.2016 12:32 Page 2



# Azərbaycan iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri rayonumuzun timsalında da özünü təcəssüm etdirir

**(Əvvəli 1-ci səhifədə)**

Hazırda həyata keçirilən aqrar islahatlar, bu sektora dövlət dəstəyinin əhəmiyyətli dərəcədə gücləndirilməsi, kənd təsərrüfatında ciddi inkişaf dinamikasına, mühüm kəmiyyət və keyfiyyət dəyişikliklərinə səbəb olub. Nəticədə ixracın stimullaşdırılması üçün həyata keçiriləcək dəstək tədbirləri, həmçinin məhsul ixracı ilə bağlı yaranan maneələrin aradan qaldırılması kənd təsərrüfatı məhsullarının həm ümumilikdə, həm də müxtəlif seqmentlər üzrə ixracını kəskin şəkildə artırıb. Belə ki, 6 ay ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqaisədə ümumilikdə 27,5 faiz, o cümlədən meyvə ixracı üzrə 13,1 faiz, tərəvəz məhsulları ixracı isə 33,1 faiz artım olmuşdur. Bundan əlavə, ixrac məhsullarının çeşidi də artıb ki, buraya ərzaqlıq lobya, düyü, ərzaqlıq və yemlik arpa, darı və çərəzlər, heyvandarlıqda isə ət və süd məhsulları daxildir. Eyni zamanda ixracın coğrafiyası dəyişilərək xeyli genişlənmişdir.



Uğurlu ixrac potensialının mövcudluğu isə sahibkarlığın inkişafından irəli gəlir ki, bu da iqtisadiyyatın təməlini təşkil edir. Bu məqsədlə cari ildə sahibkarlara güzəştli şərtlərlə 73 milyon manat kredit verilib. Eyni zamanda, dövlət həm əkin sahələrinə, həm yanacağa, həm gübrəyə subsidiyalar, sahibkarlara aşağı faizlə güzəştli şərtlərlə 1 milyard manatdan çox kreditlər verir. Dövlət sahibkarlara tövsiyələr verir, öz bizneslərini necə qurmaqları barədə metodik sənədlər təqdim edir. Cənab Prezident onu da vurğulamışdır ki, dövlət kənd təsərrüfatı texnikası alır, aqrolizinq yolu ilə fermerlərə verir, gübrə zavodunu tikir, indi pestisid zavodunun tikintisini nəzərdə tutur, suvarma işlərini təmin edir, 100 milyonlarla, milyardlarla manat dəyərində olan böyük su anbarları yaradır. Eyni zamanda, dövlət fermerlərdən xaricə göndərmək üçün yardım formasında məhsulu almağa da hazırdır.

Prezident İlham Əliyev nitqində prioritet istiqamətlər üzrə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin vacibliyini qeyd etdi. Dövlət başçısı ixrac yönümlü iri sənaye müəssisələrinin yaradılması, kiçik və orta sahibkarlığın gücləndirilməsi ilə bağlı tapşırıqlarını verdi. Müstəqil Azərbaycanın sənaye quruculuğu siyasəti ölkəmiz üçün rəqabət qabiliyyətli ixrac imkanları yaradan yeni sənaye sahələrinin yaradılmasına istiqamətlənib. Respublikamızda sənaye quruculuğuna verilən böyük önəmin nəticəsidir ki, 2015-2020-ci illərdə sənayenin inkişafına dair Dövlət Proqramı hazırlanmışdır.

Cənab Prezident çıxışı zamanı onu da bildirdi ki, bu il ölkədə dərman istehsalına başlanması, sənaye mərkəzlərinin yaradılması istiqamətində, həmçinin Mingəçevirdə yüngül sənaye kompleksinin təməlinin qoyulması, hər bir rayonun sənaye potensialının inkişaf etdirilməsi ilə bağlı işlər davam etdirilir.

Azərbaycanda xalçaçılıq sənayesinin, baramaçılığın, pambıqçılığın və tütünçülüyün inkişafına dövlət dəstəyinin bundan sonra da davam etdirilməsi, zəruri ərzaq məhsulları ilə təminatın, ət və süd məhsullarına olan tələbatın ödənilməsi, meliorativ tədbirlərin davam etdirilməsi, torpaqlardan səmərəli istifadə olunması, o cümlədən, turizm sənayesinin yaradılması istiqamətində görülən tədbirlərin davamlı olması ilə bağlı tapşırıqlarını verən dövlətimizin başçısı son illərdə Bakıda keçirilən beynəlxalq tədbirlərin, həmçinin Formula-1 Avropa Qran-prisinin ölkəmizdə turizmin inkişafına ciddi dəstək verdiyini bildirdi.

Əminliklə qeyd etmək olar ki, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı, həmçinin, qeyri neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 2016-2020-ci illərdə ölkəmizdə istehsal olunan qeyri neft məhsullarının ixracının təşviqi istiqamətində əhəmiyyətli addım olacaq.

Müşavirədə Prezident İlham Əliyev "ASAN Xidmət"in fəaliyyətinə də toxunaraq, artıq bu quruma yarandığı vaxtdan indiyə qədər 10 milyon müraciət edildiyini, ölkədə 9 "ASAN Xidmət" Mərkəzinin fəaliyyət göstərdiyini, bu il isə Masallı və Qəbələdə yeni mərkəzlərin yaradılacağını diqqətə çatdırdı. Əsassız yoxlamaların azaldılması ilə bağlı verdiyi tapşırıqların müvəffəqiyyətlə icra olunduğunu vurğulayan dövlət başçısı 2016-cı ilin ikinci yarısının da uğurlu olacağına əminliyini bir daha ifadə etdi.

Bu gün Azərbaycan iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri rayonumuzun timsalında da özünü təcəssüm etdirir. Rayonda qeyri-neft sektorunun aparıcı sahəsi kimi kənd təsərrüfatının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Əhalinin ərzaqla təmin olunması üçün son illər dövlət tərəfindən aqrar sahəyə diqqət və qayğının gücləndirilməsi, kənd təsərrüfatı mülkiyyətçilərinə edilən güzəşt və yardımların miqyasının artması kənd təsərrüfatının əsas istehsal sahələrindən biri olan bitkiçiliyin sürətlə inkişafına təkan vermişdir.

2016-cı ildə rayonda kartofçuluq, taxılçılıq, üzümçülük və digər kənd təsərrüfatı bitkilərinin əkin sahələri genişləndirilmiş, idxalı əvəz edən ixrac yönümlü istehsalın yaradılması prioritet istiqamət olmuşdur.

Cari ilin fevral ayının 16-da möhtərəm Prezidentimiz İlham Əliyevin rayonumuza gəlişi zamanı bir sıra obyektlərlə yanaşı açılışını etdiyi Tovuzçay su anbarının istifadəyə verilməsi əkin sahələrinin xeyli artırılmasına səbəb olmuşdur. Rayonda yaradılmış əlverişli mühit, yeni iqtisadi şəraitə uyğun nəzərdə tutulan tədbirlər, kənd təsərrüfatı məhsulları istehsal edən iri təsərrüfatların yaradılmasına səbəb olmuşdur. Cənab Prezidentin Sərəncamı ilə rayonumuzda daha 8 subartezian quyusunun qazılması qərara alınmışdır.

Bu təsərrüfatlarda 100 hektarlarla taxıl, kartof, emal üçün şəkər çuğunduru, ərzaq üçün bostan bitkiləri əkilmişdir. 2016-cı ilin məhsulu üçün 26439 hektar sahədə əkin aparılmışdır ki, bu, əvvəlki illə müqayisədə 1287 hektar çoxdur. Ümumi əkin sahələrinin 43,7 faizini dənlilər, 31 faizini kartof, 6,8 faizini tərəvəz və bostan, 0,8 faizini texniki bitkilər, 17,7 faizini yem bitkiləri təşkil etmişdir. Ötən illə müqayisədə kartof əkini sahələri 529 hektar, dənli bitkilər əkini 439 hektar, tərəvəz əkini 45 hektar, günəbaxan əkini 93 hektar, yem bitkilərinin əkin sahələri isə 38 hektar genişləndirilmişdir.

2016-cı ilin məhsulu üçün rayonda müstəqillik dövründə ilk dəfə olaraq 20 hektar sahədə tütün, 110 hektar sahədə emal üçün şəkər çuğunduru əkilmişdir.

Cari ilin birinci 6 ayında kənd təsərrüfatı sahəsində məhsul buraxılışı 27 faiz artmışdır. Bu dövrdə rayonda 32 min 672 ton taxıl, iyulun1-i vəziyyətinə 5574 ton kartof, 7495 ton tərəvəz, 1950 ton meyvə və giləmeyvə istehsal olunmuşdur. Məhsul yığımı davam etdirilir. Cari ildə xüsusilə bol kartof məhsulu yetişdirildiyini söyləmək olar. Kartof məhsulunun keyfiyyətli şəkildə istehlakçıya çatdırılması üçün hər birinin tutumu 3000 ton olan iki soyuducu kameranın inşasına başlanılmışdır. Bu kameralardan birinin bu il istismara verilməsi gözlənilir.

İstehsal olunan kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılması istiqamətində lazımi işlər aparılır. İndiyədək 3 min tondan çox yerkökü, 1535 ton pomidor və xiyar, 1000 ton meyvə və giləmeyvə xarici ölkələrə ixrac olunmuşdur. Bu məhsulların istehsal və ixrac olunmasında 500 nəfərdən çox mövsümi işçi çalışmışdır.

Bu il Tovuz rayonu üçün ənənəvi olan barama və tütün istehsalına başlanmışdır. İlk mövsümdə 1560 kq barama istehsal olunmuş, 20 hektar sahədə tütün əkilmişdir. Yazda və erkən yayda təbiətin şıltaqlığına, bir neçə dəfə sahələri dolu vurmasına baxmayaraq lazımi aqrotexniki tədbirlərin görülməsi nəticəsində tütün plantasiyalarında yaxşı məhsul yetişdirilmişdir. Hazırda Qəribli, Əsrik Cırdaxan və Vahidli kəndlərində tütün yarpağı yığımına başlanılmışdır. 2017-ci və sonrakı illərin məhsulu üçün tütün şitilliklərinin yaradılması istiqamətində iş aparılır.

Artıq baramaçılığın daha geniş yayılması üçün yem bazası yaradılması ilə əlaqədar tədbirlər müəyyənləşdirilmişdir.

**(Davamı 3-cü səhifədə)**

1-1_tovuz.qxd 22.07.2016 12:32 Page 3



# Azərbaycan iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri rayonumuzun timsalında da özünü təcəssüm etdirir



(Əvvəli 2-ci səhifədə)

Payız-qış mövsümündə ayrı-ayrı yaşayış məntəqələrində 5000 ədəddən çox çəkil (tut) ağaclarının əkilməsi nəzərdə tutulur. İlkin nəticələr onu deməyə əsas verir ki, gələn ildən etibarən baramaçılıq və tütünçülük daha da genişləndiriləcəkdir. Eyni zamanda, istixanaların genişləndirilməsi, bağçılıq təsərrüfatlarının inkişaf etdirilməsi, xurma və qoz-fındıq bağlarının salınması və məhsulun ixrac olunması əsas hədəflərmizdəndir. Buna nail olmaq üçün əhali arasında lazımi maarifləndirmə işlərinin aparılması, kiçik və orta sahibkarlıq üçün sağlam biznes mühitinin yaradılması zəruridir. Yerli icra nümayəndələri, bələdiyyələr fəaliyyətlərini bu istiqamətə yönəltməlidirlər. Hər kəsin işinə bu sahədə əldə etdiyi nəticələrə görə qiymət veriləcək və müvafiq tədbirlər görüləcəkdir. Qısa müddət ərzində hər bir inzibati ərazi dairəsinin sosial-iqtisadi inkişafına dair təkliflər hazırlanıb RİH aparatına təqdim olunmalıdır.

Rayonda iri buynuzlu malın baş sayı keçən ilin müvafiq dövrünə nisbətən 0.6 faiz artaraq 46372 başa, qoyun-keçilərin sayı 0.1 faiz artaraq 238926 başa çatmışdır. Bu dövrdə əvvəlki illə müqaisədə ət istehsalı 3.3 faiz, süd istehsalı 2.6 faiz, yumurta istehsalı 3.4 faiz, yun istehsalı 2 faiz çox olmuşdur. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq məqsədi ilə 255 baş yüksək məhsuldar cins inək və düyələr bəslənilib, 189 baş heyvanda süni mayalanma aparılmış, 102 baş bala alınmışdır. Vaxtilə xaricdən lizinq yolu ilə alınmış damazlıq inəklərin rayonda artıq 3-cü nəsili yaranmışdır və onlar yerli şəraitə tam uyğunlaşmaqla öz məhsuldarlığı ilə seçilir. Hesabat dövründə xaricdən 23 baş mal-qara alınıb gətirilərək ayrı-ayrı sahibkarlara verilmişdir. Bundan əlavə, suni mayalanma işini zootexniki qaydalar əsasında təşkil etmək istiqamətində tədbirlər görülür. Yeni doğulan hər baş cins buzova görə 100 manat məbləğində subsidiyanın müəyyənləşdirilməsi də heyvandarlıqla məşğul olan fermerlərin əməyinin stimullaşdırılmasına kömək göstərmişdir.

Kənd təsərrüfatında yeni istehsal sahələrinin yaradılması və emal müəssisələrinin açılması məqsədilə 500 başlıq heyvandarlıq kompleksinin yaradılması üçün Sahibkarlığa Kömək Milli Fonduna müraciət olunmuş və hazırda torpaq sahələrinin yer quruluşu sənədləri tərtib olunaraq layihələndirmə işləri aparılır. Kompleksdə 100 nəfərin daimi iş yeri ilə təmin olunması nəzərdə tutulur.

Ərazidə üzümçülüyün inkişaf etdirilməsi və üzüm emalı müəssisələrinin yaradılması strateji hədəfimizdir. Hazırda rayon ərazisində mövcud olan 700 hektar üzüm sahəsini genişləndirərək gələn il 1000 hektara, 2018-ci ildə isə 3000 hektara çatdırmağı planlaşdırırıq. Hazırda yerli sahibkarlar tərəfindən 200 mindən çox üzüm tingləri yetişdirilir. Üzümün təzə-tər şəkildə ixrac edilməsi və Rusiya bazarlarına çıxarılması istiqamətində iş adamları ilə danışıqlar aparılır. İlk növbədə tez yetişən üzüm məhsullarını ixrac etmək istəyirik. Bu məqsədlə artıq ilkin hazırlıq işlərinə başlanmışdır.

Ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə Ceyrançöl qış otlaqlarında 12 min hektar sahənin təyinatı dəyişdirilərək Dövlət ehtiyat fondu torpaqlarına aid edilmiş və burada iri taxılçılıq və yemçilik təsərrüfatı yaradılmışdır.

Rayonda sənaye parkının təşkili və orada plastik qablar istehsalı zavodunun yaradılması ilə bağlı hüquqi sənədlər hazırlanır. Sənaye parkı layihəsi çərçivəsində investorların cəlb olunması yolu ilə təbii seolit məhsullarının emalı müəssisəsinin yaradılmasını nəzərdə tuturuq. Eyni zamanda, bərk məişət tullantıları mərkəzinin tikintisi ilə əlaqədar xarici investorlarla iş aparılır.

Bütövlükdə 01 iyul 2016-cı il vəziyyətinə Tovuz rayonunda 738 yeni iş yeri açılmış, bundan 508-i daimi, 230-u müvəqqəti işlərdir. Cənab Prezidentin tapşırıqlarına uyğun olaraq qeyri-neft sektorunun inkişafı ilə əlaqədar Tovuz rayonunda müxtəlif istiqamətlərdə məqsədyönlü tədbirlər görülür və bu işlər bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatı məhsullarının inkişafına dair tapşırıqları, bununla bağlı Prezident Administrasiyasında keçirilmiş müşavirələrdə verilmiş tövsiyələrin yerində icra vəziyyətinin öyrənilməsi ilə əlaqədar yaradılmış İşçi qrupu iyun ayının 22-də Tovuz rayonunda olmuş, qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafı ilə əlaqədar görülmüş işlər yerində araşdırılmış və bununla bağlı vəziyyət geniş Şura iclasında müzakirə olunmuşdur. Müzakirələr zamanı sahibkarlar tərəfindən rayon iqtisadiyyatının inkişafı ilə bağlı bir sıra təkliflər irəli sürülmüşdür. İrəli sürülən təkliflər sırasında Tovuz şəhərində sənaye məhəlləsinin yaradılmasına dövlət dəstəyi göstərilməsi, toxumçuluq təsərrüfatlarının yaradılması, üzümün təzə-tər şəkilində xarici bazarlara çıxarılmasına və üzümçülüyün inkişafının təmin edilməsi məqsədilə məhsuldar üzüm sortlarının gətirilməsinə kömək göstərilməsi, Tovuzçay su anbarının layihə gücünə çatdırılması və qonşu ərazilərdə yerləşən Azaflı və Bayramlı kəndlərinə Tovuzçay su anbarından suvarma suyu verilməsi, kənd təsərrüfatı məhsullarının təbii fəlakətlərdən sığortalanması qaydalarına yenidən baxılması və güzəştlərin tətbiq edilməsi, rayonda qoyunçuluq sahəsində olan potensialı nəzərə alaraq yun tədarükü müssisəsinin yaradılması və sair məsələlər yer almışdır. Bu təkliflər aidiyyəti mərkəzi icra orqanlarına göndərilmişdir.

Ekoloji tədbirlərin həyata keçirilməsi, yaşıllıqların salınması işləri ilə əlaqədar tədbirlərimiz davam edir. Bu mövsümdə 46 hektar ərazidə yeni meşələr salınmış, 60 mindən çox ağac və gül kolu əkilmişdir.

Nazirlər Kabinetinin iclasındakı çıxışında cənab Prezident banklardan iqtisadiyyatın əsas sektoruna yönəldilən vəsaitin artırılmasını bir vəzifə olaraq qarşıya qoymuşdur. Hesabat dövründə Sahibkarlara Kömək Milli Fondu tərəfindən hüquqi və fiziki şəxslərə kənd təsərrüfatının inkişafı məqsədilə 6 layihə üzrə 63 min 500 manat kredit verilmişdir. Bunun hesabına 6 iş yerinin açılması nəzərdə tutulmuşdur. Digər banklardan 2015 fiziki şəxsə 3 milyon 540 min 300 manat vəsait verilmişdir. Bu vəsaitin 51 faizi kənd təsərrüfatına, 12 faiz, ticarət və nəqliyyat xidmətinə, 5 faizi tikintiyə, qalanları isə digər məqsədlər üçün ayrılmışdır.

2016-cı ilin 6 ayı üzrə yerli gəlirlərin mədaxil üzrə proqnozu 4 milyon 62 min 464 manata qarşı 4 milyon 208 min 981 manat, yəni 103,6 faiz icra olunmuşdur. Bu dövr üzrə xərclər proqnozu isə 101,8 faiz icra olunmuşdur. Artıq xərcin yaranmasının səbəbi əmək haqqlarının 10 faiz artımı ilə bağlıdır.

Məlum olduğu kimi, bu ilin əvvəlindən ünvanlı sosial yardım üçün müraciət edilməsinin yeni qaydaları müəyyən olunmuşdur. Bu proses hazırda vətəndaşlar tərəfindən elektron qaydada həyata keçirilir. Cari ilin altı ayı ərzində 2357 ailəyə ünvanlı sosial yardım ödənilmişdir ki, bunun da aylıq məbləği 336 min 127 manat təşkil edir.

Əhalinin məşğulluğunun təmin olunması sahəsində aparılan işlər hesabat dövründə də davam etdirilmişdir. Bu dövrdə 1314 nəfərə işə göndəriş vərəqəsi verilmiş, 660 nəfər iş axtaran vətəndaş 18 idarə, müəssisə və təşkilatda işlə təmin olunmuşdur. İşə düzəldilməsi mümkün olmayan 72 nəfər ali və orta ixtisas təhsilli mütəxəssisə işsizlik müavinəti hesablanmışdır.

2016-cı ilin birinci yarısında tikinti-quruculuq və abadlıq işləri, digər sosial proqramlar davam etdirilmişdir. "Tovuz rayonunda abadlıq işləri" xətti ilə Tovuz şəhərinin Heydər Əliyev prospekti, Həzi Aslanov, Rövşən Məmmədov, Musa Musayev və Səməd Vurğun küçələrində səkilərə 2157 kv.m tomet tavalar döşənmiş, hasar və binaların fasadında 7,7 kub metr ağac materialından dekorativ şəbəkələr qurulmuş, 3820 kv.m hasar və binaların fasadında, 1980 kv.m darvazalarda rəngləmə işləri aparılmış, 1167 metr uzunluqda beton bort daşları düzülmüş, hasarlarda aqlay və qaya daşından dekorativ üzlüklər vurulmuşdur.

(Davamı 4-cü səhifədə)

1-1_tovuz.qxd 22.07.2016 12:32 Page 4



# Azərbaycan iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri rayonumuzun timsalında da özünü təcəssüm etdirir

**(Əvvəli 3-cü səhifədə)**

"Mənzil Fondunun əsaslı təmiri işləri" xətti ilə Heydər Əliyev prospektində bir ədəd, Əzizbəyov küçəsində 2 ədəd, Sabir küçəsində bir ədəd, Xəqani küçəsində iki ədəd beş mərtəbəli, Vaqif küçəsində bir ədəd, Semzavod qəsəbəsində iki ədəd, Qovlar şəhərində iki ədəd iki mərtəbəli yaşayış binalarında təmir işləri aparılır.

Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisi işləri davam etdirilir.

Tovuz şəhərində Nizami adına mədəniyyət evinin və Aşıq Hüseyn Bozalqanlı adına Aşıq Sənəti Dövlət Muzeyinin tikintisində, Tovuz şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin 3-cü mərhələsində işlər davam edir.

2016-cı ilin birinci yarısında yaşayış məntəqələrinin elektrik enerjisi, qaz, su təchizatı məsələləri ilə müntəzəm məşğul olunmuşdur. Əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi sahəsində tədbirlər davam etdirilir.

Birinci yarımillikdə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin işinin təşkili sahəsində tədbirlər davam etdirilmişdir.

Təhsil sahəsində aparılan işlər həmişə rayon icra hakimiyyətinin diqqətində saxlanılır. Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində işlər ardıcıllıqla davam etdirilir. Təhsilin inkişafına göstərilən dövlət qayğısına əməli işlərlə cavab vermək hamımızın borcudur. 2015-2016-cı il tədris ilinin yekunlarını təhlil etmək hələlik bir qədər tezdir. Bu məsələyə qəbul imtahanlarının başa çatmasından sonra baxmağı nəzərdə tuturuq.

Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Son illərdə rayonumuz respublikanın ali hərbi məktəblərinə və hərbi liseylərinə qəbul olunanların sayına görə respublikada lider mövqeyinə yüksəlmiş və digər rayonlar üçün gözəl nümunəyə çevrilmişdir. Son 7 il ərzində 495 nəfər ali hərbi məktəblərə və hərbi liseylərə qəbul olunmuşdur. Cari ildə də görülən tədbirlər nəticəsində Tovuz rayonundan hərbi məktəblərə qəbul üçün sənəd verən 163 nəfərdən 95 nəfəri hərbi tibbi komissiyadan keçmişdir. Ümid edirik ki, onlar da imtahanları müvəffəqiyyətlə verib hərbi məktəblərə qəbul olunacaqlar.

Rayonun məktəbəqədər tərbiyə müəssisələrinin fəaliyyətində lazımi keyfiyyət dəyişiklərinə nail olunması üçün konkret işlər davam etdirilir. Tovuz və Qovlar şəhərinin hər birində 100 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilmişdir. Məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, onun maddi-texniki bazasının yaxşıladırılması və müasirləşdirilməsi, rayonun bütün kəndlərində uşaq bağçalarının açılmasına nail olunması rayon icra hakimiyyətinin əsas hədəflərindən biridir.

Hesabat dövrü ərzində 118 min 464 nəfər profilaktik tibbi müayinədən keçirilmiş, 8515 nəfərdə müxtəlif xəstəliklər aşkar edilmişdir. Həmin xəstələr ambulator və stasionar şəraitdə müalicə alaraq sağlamlığı bərpa olunmuşdur. Tovuz şəhər xəstəxanasında cari ilin birinci yarımilliyində lazımi səriştəli cərrahi əməliyyatlar həyata keçirilmiş və həmin tibb ocağında göstərilən xidmətin səviyyəsi yaxşılaşdığından əhalinin digər şəhər və rayonlara üz tutması, demək olar ki, aradan qalxmışdır.

Rayon ərazisində xüsusi təhlükəli infeksiyalar aşkar edilməmişdir və epidemioloji vəziyyət stabil olmuşdur.

Hesabat dövründə mədəniyyət müəssisələrinin işinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilmişdir. Dövlətin qayğısı ilə rayonun əksər kənd yolları yenidən qurulmasına, Əsrik dərəsi və Xınna dərəsi boyunca müasir yol çəkilərək lazımi infrastruktur yaradılmasına baxmayaraq, hələ də turizm sənayesini arzuladığımız səviyyəyə çardırmaq mümkün olmamışdır. Doğrudur,



mövsümü fəaliyyət göstərən turist obyektlərimiz kifayət qədərdir, ancaq real tələbat və şərait nəzərə alınmaqla həmin şəbəkəni genişləndirməklə ekoturizmi, turistə xidmət göstərən kənd evləri və alaçıq-çadır sistemini, bir sıra qabaqcıl təcrübəni tətbiq etməklə onu dəfələrlə artırmaq və beləliklə, əhalimizin məşğulluğunu və gəlirlərini əhəmiyyətli dərəcədə yüksəltmək mümkündür və bu istiqamətdə aparılan işlər gücləndirilməlidir. Cari ilin 6 ayı ərzində narkotiklərlə əlaqədar 7 fakt qeydə alınmışdır. Qeyri-leqal dövriyyədən 221.874 qram qurudulmuş marixuana, 0.133 qram heroin çıxarılmışdır. "Xaş-Xaş 2016" şərti adlı tədbirlər planının icrası ilə əlaqədar keçirilmiş tədbirlər nəticəsində Tovuz rayonunun ərazisində 840 m2 torpaq sahəsindən ümumi sayı 6608 ədəd, yaş kütləsinin çəkisi 1121 kq olan yabanı halda bitmiş narkotik xassəli çətənə kolları aşkar olunaraq kökündən çıxarılmaqla yandırma yolu ilə məhv edilmişdir.

Bununla belə əhali arasında narkomaniyaya meyllik halları müşahidə olunur. Xüsusilə parklarda, ictimai yerlərdə kommunal müəssisələr tərəfindən aparılan təmizlik işləri zamanı narkotik vasitələrin tullantılarına rast gəlinir. Ona görə də narkotik vasitələrin və psixotrop maddələrin yayılmasına və istifadəsinə qarşı aparılan mübarizə tədbirləri daha da gücləndirilməlidir.

Məlumdur ki, Tovuzda rayonun idman strategiyası hazırlanmışdır və ayrı-ayrı idmançılarımız respublika yarışlarında iştirak edir, müəyyən nəticələr qazanırlar, ancaq Tovuz kimi zəngin idman ənənələri və məktəbi olan bir bölgə üçün bu, çox azdır. Rayonun idman strategiyasının əsas istiqamətləri məlumdur və onu yerinə yetirmək sahəsində rayon gənclər və idman idarəsinin, təhsil şöbəsinin, olimpiya idman kompleksinin və idman federasiyalarının üzərinə böyük məsuliyyət düşür. Gənclərin asudə vaxtının səmərəli təşkili üçün bu il istifadəyə verilmiş Gənclər Evinin imkanlarından maksimum istifadə olunmalıdır.

Rayon ərazisində kriminogen vəziyyət, ictimai-siyasi və dini durum sabitdir. Ərazidə fəaliyyət göstərən siyasi partiyalar və ictimai təşkilatların yerli bölmələri ilə münasibətlərdə qanunvericiliyin tələblərinə tam riayət olunur.

Məlumdur ki, 2016-cı ili "Multikulturalizm ili" elan olunmuşdu. Bununla əlaqədar Tovuz rayon icra hakimiyyətinin Tədbirlər Planı təsdiq olunmuş və yerinə yetirilməsi istiqamətində ardıcıl işlər aparılır. Dünyada analoqu olmayan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu gün dövlət siyasətinin vacib istiqamətlərindən biri olan Azərbaycan multikulturalizmini bütün dünyaya nümayiş etdirir. Azərbaycan tarixən çoxkonfessiyalı məkan olmuşdur. Tovuz rayonu da tarixən multikultural ənənələri ilə seçilmişdir və bu ənənələr bu gün də davam edir.

2016-cı ilin birinci yarımilliyində rayon icra hakimiyyəti aparatında vətəndaşların müraciətlərinə baxılması, şifahi qəbulların təşkili, yerlərdə səyyar qəbul-görüşlərin keçirilməsi sahəsində qarşımıza qoyulmuş vəzifələr əsasən yerinə yetirilmişdir.

2016-cı ilin 6 ayı ərzində RİH başçısı aparatına 478 vətəndaş müraciəti daxil olmuş və 800 nəfər RİH başçısı tərəfindən qəbul edilmişdir. Bu müraciətlərin əksəriyyəti torpaq, mənzil, əhalinin sosial müdafiəsi, ailə və məişət problemləri tələbi barədədir. Hər bir müraciətə həssaslıqla yanaşılmış və hüquqi cavab verilmişdir. Hesabat dövründə Qaradaş, Xatınlı, Həsənli, Əhmədabad və Ağacqala kəndlərindən heç bir müraciət daxil olmamışdır. Təəssüf ki, hələ də vətəndaş müraciətlərinə biganə münasibət göstərən vəzifəli şəxslər vardır. Aparılan təhlillər göstərir ki, bəzi yerlərdə bu sahədə işlər lazımi səviyyədə qurulmamışdır. Birinci yarım il ərzində RİH başçısı aparatına Tovuz şəhərindən 46, Aşağı Öysüzlü kəndindən 25, Abulbəyli kəndindən 20, Əyyublu kəndindən 19, Vahidli kəndindən 15 müraciət daxil olmuşdur. Hansı ki, bu müraciətlərdə qaldırılan məsələlər əsasən yerli təşkilatların səlahiyyətlərinə aid olmuşdur və yerində öz həllini tapa bilərdi.

Birinci yarımillikdə yaşayış məntəqərində 24 səyyar qəbul-görüş keçirilmiş və bu görüşlərdə yerli sakinlər tərəfindən 209 təklif səslənmişdir. Qaldırılmış məsələlərdən 89-u artıq həllini tapmış, 44-ü hazırda icra olunmaqdadır, 39-u barədə aidiyyatı üzrə məsələ qaldırılmış, 37-si barədə vətəndaşlara hüquqi izahat verilmişdir.

Nazirlər Kabnetinin iclasında cənab Prezidentin qarşıya qoyduğu vəzifələr bizim üçün müfəssəl fəaliyyət proqramıdır.

Azərbaycan dövləti və xalqı naminə gördüyü misilsiz işlərə, rayonumuza göstərdiyi diqqət və qayğıya görə Zati-aliləri cənab Prezidentə dərin minnətdarlığımı bildirirəm və əmin edirəm ki, Tovuz rayonunda onun hər bir tapşırıq və tövsiyyələri bundan sonra da böyük məsuliyyət hissi ilə icra ediləcəkdir.

* * *

Məruzə ətrafında müzakirələr olmuşdur. Müzakirələrdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Tovuz rayon şöbəsinin rəisi Elməddin Cəfərov, Tovuz Suvarma Sistemləri İstismarı İdarəsinin rəisi Nəsrəddin Aslanov, Tovuz Bitgi Mühafizəsi İdarəsinin rəisi Lalə Şamilova çıxış edərək, rayonda 6 ayda görülən işləri yüksək qiymətləndirdilər, bundan sonra da üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə söz verdilər.

Şura iclası məruzə və çıxışları dinləyərək müvafiq qərar qəbul etdi.

### 14 iyul 1969-cu il -tariximizin şanlı günü

# Azərbaycanın dünyaya bəxş etdiyi şəxsiyyət

14 iyul 1969-cu il. Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış bir gün. Xalqımızın taleyində bir dönüş yaratmış bu gündə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi.

Qısa bir zamanda ölkənin ictimai-siyasi, iqtisadi, mədəni həyatında böyük bir



dönüş yarandı, inkişaf dövrü başlandı. Heydər Əliyevi özündən əvvəlki birinci katiblərdən fərqləndirən cəhət nəydi?

O, hər şeydən əvvəl qətiyyətli və cəsarətli idi. Usta siyasətçiydi. Dərin savada, fenomen yaddaşa, uzaqgörən düşüncəyə malik idi. Siyasəti bildiyi qədər, iqtisadiyyata da dərindən bələd idi. Onu fərqləndirən cəhətlərdən biri də kadrlar seçmək və onlarla işləməyi bacarmaq qabiliyyətiydi.

Kadr siyasətinə böyük önəm verən Ulu Öndər onların yetişməsi üçün əlindən gələni edir, çoxlu sayda orta və ali təhsil müəssisələrinin yaradılmasına nail olurdu. Məhz bu milli kadrların yetişməsi sayəsində Azərbaycan SSRİ dövründə böyük uğurlara imza atdı.

Mükəmməl iqtisadi biliklərə və təcrübəyə malik bu dahi insan o dövrdə iqtisadiyyatımıza hansı sahələrin daha çox xeyir verəcəyini yaxşı bilir və bu sahələrin inkişafına xüsusi diqqət yetirirdi. İlk baxışdan bu işlər asan görünsə də, əslində olduqca çətin və mürəkkəb idi. Çünki, hər sahə Moskvanın nəzarəti altında idi, xərclənəcək hər qəpiyi orada oturanlar ayırırdı. Burada məhz Heydər Əliyevin özünün şəxsi keyfiyyəti, nüfuzu, insanlarla ünsiyyət qurmaq bacarığı köməyə çatırdı. Heydər Əliyevin dövründə Azərbaycan pambıqçılıq ölkəsindən üzümçülük ölkəsinə çevrildi. O, yaxşı bilirdi ki, üzümçülük çox gəlirli bir sahədir və çox böyük gəlir gətirə bilər.

Azərbaycan birdən-birə üzümçülük diyarına çevrilmədi. Bunun üçün qabaqcadan düşünülmüş şəkildə aqronom kadrlar, mütəxəssislər hazırlandı.

Üzümçülüyün meydana gəlməsi ölkədə çox gəlirli bir sahə olan şərabçılığın da yaranmasına səbəb oldu. Yerli Azərbaycan şərabları nəhəng SSRİ bazarlarını fəth etdi. Ölkəyə küllü miqdarda gəlir gəldi.

Bu gəlirlərin xalqın rifah halının yüksəldilməsinə yönəldilməsi isə böyük insanın ən böyük amalı idi. Azərbaycandakı ən böyük zavodların, fabriklərin, təhsil və səhiyyə ocaqlarının yaradılması məhz Heydər Əliyüvin adı ilə bağlıdır.

Yaşadığım Əyyublu kəndini missal gətirmək istəyirəm. Həmin dövrün statistikasına nəzər salanda görürük ki, hər il bu kənddə 15 min tondan çox üzüm istehsal olunub. Hazır məhsulun bir qismi xarici bazarlarda satılır, bir qismindən isə kənddəki üzüm emalı müəssisəsində şərab hazırlanırdı. İndi də göz oxşayan fərdi və ictimai binalar məhz həmin dövrlərdə tikilib istifadəyə verilmişdir.

Həmin illərdə Heydər Əliyev öz iqtisadi göstəricilərinə görə çox geridə qalmış ölkəni qısa zamanda birincilər sırasına çıxardı. O, buna qeyri-neft sektorunun çoxşaxəli, sürətli və səmərəli inkişafını təmin etmək, həmin sahələrə aid müəssisələri yaratmaq sayəsində nail oldu. Təkcə bir fakta nəzər salsaq dediklərimizi əyani şəkildə sübut etmiş olarıq. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həmin illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi və s. yaradılmışdır.

O illərdə onun qayğısı ilə regional mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərin üstün inkişafı əmək ehtiyatlarından istifadənin regional problemlərinin həllində, kəndin əmək qabiliyyətli əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdı. Bu proses kənd əhalisinin işlə təmin olunmasına, iri şəhərlərə işçi qüvvəsinin axınının qarşısının alınmasına şərait yaratdı.

Heydər Əliyevin yaratdığı idarəçilik məktəbinin təcrübəsindən daima istifadə olunmuş və bu gün də olunmaqdadır. Bu məktəbdə yetişmiş təcrübəli kadrlar bu gün də Heydər Əliyev kursunun layiqli davamçısı İlham Əliyevin ətrafında sıx birləşərək öz bilik və bacarıqlarını, zəngin təcrübələrini ölkəmizin çiçəklənməsi naminə sərf edirlər. Regionların inkişafına xüsusi diqqət və qayğının göstərilməsi kursu indi də cənab prezident İlham Əliyev tərəfindən uğurla və yeni müasir forma və üslubda həyata keçirilir.

Bunu biz öz gündəlik həyatımızda hər an hiss edirik. Doğma rayonumuzda aparılan quruculuq işləri, yeni yolların çəkilməsi, bütün xidmət sahələrinin yenidən qurulması, qeyri-neft sektorunun inkişafına gözəl şərait yaradılması buna bir sübutdur. Dövlətimizin maddi və mənəvi dəstəyi, cənab Prezidentin qayğısı sayəsində rayonumuz İcra hakimiyyətinin başçısı cənab Tofiq Zeynalovun rəhbərliyi və təşkilatçılığı altında günü-gündən inkişaf edir və çiçəklənir. Bütün bunlar üçünsə biz Ulu Öndərimizə minnətdarıq.



*Yaşar Məmmədov,*
*Tovuz Regional Poçt Filialının Əyyublu poçt şöbəsinin rəisi.*

**"Türkiyə Universitetləri Məzunları" İctimai Birliyi (TUMİB) Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirdiyi "Gənclərin narkomaniyaya qarşı mübarizədə "Ağ ölümdən gənclərimizi qoruyaq" şüarı altında birləşməsi" adlı layihənin icrasını davam etdirir. Layihə çərçivəsində növbəti tədbir Tovuz şəhərində baş tutub. YAP Tovuz rayon təşkilatının iclas zalında keçirilən tədbir "Ağ ölümdən gənclərimizi qoruyaq!" adlı videoçarxın nümayişi ilə başlayıb.**

# "Ağ ölümdən gənclərimizi qoruyaq"




Rayon Gənclər və İdman İdarəsinin rəisi Sahib Ələsgərov yığıncağı açaraq bildirib ki, narkomaniyaya qarşı illərdi müxtəlif vasitə və metodlarla mübarizə aparılır. S.Ələsgərov vətəndaş cəmiyyəti institutlarının bu istiqamətdə göstərdiyi səyləri müsbət qiymətləndirərək, qarşılıqlı əməkdaşlığın faydalı olacağını deyib.

"Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin sədri Çingiz Bayramov əvvəlcə layihə barədə ətraflı məlumat verib. Qeyd edib ki, layihənin məqsədi maarifləndirmə işi aparmaqla yeniyetmə və gənclər arasında narkomaniyanın



yayılmasının qarşısını almaqdır. Ç.Bayramov deyib ki, layihə Bakı şəhəri ilə yanaşı, həm də Qazax, Tovuz, Ağcabədi, Şirvan və Biləsuvar rayonlarını əhatə edir.

Narkomaniyanı "əsrin bəlası" adlandıran TUMİB sədri yeniyetmə və gənclərimizi zərərli vərdişlərdən çəkinməyə çağırıb. O, əmin olduğunu bildirib ki, ardıcıl maarifçilik işi aparmaqla yeniyetmə və gənclər arasında pis vərdişlərə qarşı müqaviməti gücləndirmək mümkün olacaq: "Gənclərimizi "ağ ölüm"ün ağuşundan xilas etmək üçün səylərimizi birləşdirməli, narkotik maddələrin qəbuluna sövq edən düşüncə və davranış modellərinin kök salmasının qarşısını almalı, sağlam təfəkkürün qələbəsinə nail olmalıyıq".

Ç.Bayramov narkomaniyaya qarşı mübarizədə dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti institutlarının da aktiv iştirak etməli olduğunu deyib. Qeyd edib ki, yeniyetmə və gənclərimizin pis vərdişlərin aludəçisinə çevrilməməsi üçün cəmiyyətin imkanlarını səfərbər etmək lazımdır.

Milli Məclisin deputatı Qənirə Paşayeva belə tədbirlərin keçirilməsini yüksək qiymətləndirdi və öz tövsiyyələrini iştirakçıların diqqətinə çatdırdı.

TUMİB İdarə Heyətinin üzvü Seymur Verdizadə narkotik maddələrin insan orqanizmi üçün zərərindən danışıb. S.Verdizadə deyib ki, narkotik maddələrdən asılılıq insanda təkcə fiziki deyil, həm də mənəvi kütlük yaradır. Natiq gəncləri pis vərdişlərdən uzaq qalmağa və öz enerjilərini müsbət istiqamətə yönəltməyə səsləyib.

Tədbirin sonunda Qənirə Paşayevanın müəllifi olduğu "Sağlamlığın öz əlində..." kitabı iştirakçılara paylandı.

*"Tovuz"*

1-1_tovuz.qxd 22.07.2016 12:33 Page 6



## Baş prokuror Zakir Qaralov iyul ayının 29-da Şəmkirdə Şəmkir, Qədəbəy, Tovuz , Ağstafa və Qazaxdan olan vətəndaşları qəbul edəcək

Qəbul Şəmkir rayon prokurorluğunda səhər saat 9-00-da başlaycaqdır.

Qəbula yazılmaq üçün Tovuz rayon sakinləri rayon prokurorluğuna müraciət etməlidirlər.

Əlaqə telefonu: 022-315-40-00

*Tovuz rayon prokurorluğu*

## Məsuliyyətin anlayışı, cinayət və onun digər hüquq pozuntularından fərqi

Bütün hüquq pozuntuları insan davranışının xarici mühitə təsiridir. Lakin, heç də hər bir təsir hüquq pozuntusu ola bilməz. İstənilən anlayışın daha geniş "ümumelmi" tərifi, konkret elmin hüdudlarından kənarda olmaqla, universal xarakter daşımalı və bu anlayışdan istifadə edən bütün elm sahələrinin tələblərinə cavab verməlidir. Çoxcəhətli anlayış olan məsuliyyət anlayışından müxtəlif elm sahələrində-hüquq, fəlsəfə, psixologiya və.s elm sahələrində istifadə olunur. Hüquqi məsuliyyətin elmi anlayışını müəyyən etmək üçün ilkin olaraq onun ümumelmi mənasından çıxış etmək lazımdır. Mürəkkəb anlayış olan məsuliyyən nəinki hüquqi kateqoriya, eyni zamanda fəlsəfi və sosioloji kateqoriya kimi də çıxış edir. Fəlsəfi aspektdən məsuliyyətə-şəxiyyətin cəmiyyətə öz əxlaqi borcunun və hüquq normalarının yerinə yetirilməsilə səciyyələnən xüsusi sosial və əxlaqi-hüquqi münasibət kimi anlayış verilir. Sosioloji baxımdan isə məsuliyyət vəzifənin pozulmasına görə sanksiyanın tətbiq edilməsi kimi xarakterizə olunur. Hüquq ədəbiyyatında isə məsuliyyət anlayışı əsasən şəxsin etdiyi hüquq pozuntusuna görə cavab vermək vəzifəsi kimi göstərilir.

Məsuliyyətin anlayışı Azərbaycan dilinin izahlı lüğətində də verilmişdir. Həmin lüğətdə "məsuliyyət" məsul olma, cavabdehlik kimi göstərilir. Etimoloji baxımdan isə "məsuliyyət" sözü məsul sözündən əmələ gəlmişdir ki, o da öz növbəsində "üzərinə məsuliyyət qoyulan, cavabdeh" mənasında işlədilir.

Məsuliyyət anlayışı fəlsəfi və hüquqi ədəbiyyatda XIX əsrin II yarısından etibarən işlədilməyə başladılmışdır. "Məsuliyyət" kateqoriyası elmi dövriyyəyə daxil edilənə qədər onun məna yükünü "cəza" anlayışı daşımışdır. Azərbaycan dilinin izahlı lüğətində "cəza" sözü hər hansı təqsirə, cinayətə, pis əmələ, qəbahətə görə birinə qarşı tətbiq edilən təsir tədbiri kimi izah edilir. Cəzadan fərqli olaraq "məsuliyyət" subyekt tərəfindən dərk edilir və buna görə də tələbat, labüdlük əlamətlərinə malikdir. Eyni zamanda məsuliyyət könüllü aktdır. İnsanın yalnız azad hərəkəti məsuliyyətə səbəb ola bilər. Əgər o, bu və ya digər hərəkət etməyə məcbur edilmişdirsə, bu hərəkətə görə məsuliyyətdən söhbət gedə bilməz.

Məsuliyyət labüdlükdür, öz fəaliyyəti və hərəkətləri barəsində kiməsə hesabat vermək vəzifəsidir. Bu baxımdan məsuliyyətin iki subyekti var. Birinci öz hərəkətləri barədə hesabat verməli olan şəxs, ikincisi hesabat verilən şəxs.

Qeyd etmək lazımdır ki, azadlıq və məsuliyyət vahid tamın iki ayrılmaz və zəruri tərəfləridirlər. Məsuliyyət olmadan azadlıq, azadlıq olmadan isə məsuliyyət ola bilməz. İnsanın məsuliyyətlə şərtlənməyən istənilən əməli azad deyildir, azadlıqsız məsuliyyət isə quru cəzadan başqa bir şey deyildir.

Bu və ya digər münasibətin hüququn hansı sahəsi ilə tənzim olunmasından asılı olaraq, hüquq pozuntuları cinayət, inzibati xəta, intizam xətası, mülki hüquq pozuntusu və s. kimi özünü büruzə verə bilər. Qeyd etmək lazımdır ki, cinayət əməli ilə digər hüquq pozuntuları müxtəlif meyarlara görə bir-birindən fərqlənir. Bu meyarlardan ən mühümü ictimai təhlükəlilik əlamətidir. Çünki, ictimai təhlükəlilik əlaməti yalnız cinayət hüquq pozuntusuna xas olan xarakterik xüsusiyyətdir. Həmçinin ictimai təhlükəli ziyan vurmaq qabiliyyəti də cinayətə xasdır.

Əməlin ictimai təhlükəliliyinin müəyyən edilməsi bir sıra əlamətlərin məcmusundan ibarətdir. Bu hər şeydən əvvəl, obyektiv cəhət ilə bağlı törədilmiş əməlin üsulu, baş vermiş nəticənin ağırlığı, cinayətin törədilməsinin vasitəsi və s., həmçinin də, subyektiv cəhətlə bağlı törədilmiş əməlin motivi, qəsdən və ehtiyyatsızlıqdan törədilməsi və s. əlamətlərdir. Burada həmçinin cinayətkarın şəxsiyyətini xarakterizə edən əlamətlər də nəzərə alınmalıdır.

Cinayət və digər hüquq pozuntularını bir-birindən fərqləndirən başqa bir meyar qeyri-hüquqilik əlamətidir, yəni cinayət hesab edilən əməllər və həmin əməllərə görə məsuliyyət tədbiri yalnız cinayət qanununda nəzərdə tutulur.

Cinayət və digər hüquq pozuntularının fərqləndirilməsi zamanı, tətbiq olunan məsuliyyət tədbirlərinin dərəcəsini də nəzərə almaq lazımdır. Bu da təbii ki, onların fərqli ictimai təhlükəlilik dərəcəsinə malik olmaları ilə əlaqədardır. Tətbiq olunan məsuliyyət tədbirlərinə nəzar salsaq,görərik ki, cinayət onun törədilməsinə görə tətbiq olunan cəzanın yüksək həddi ilə xarakterizə olunur.

Məlum olduğu kimi, cinayət əməli həmişə cinayət qanunu ilə cəza hədəsinin təsiri altında qadağan edilir. Şəxs törətdiyi cinayətə görə cəza çəkdikdən sonra qanunla müəyyən edilən qaydada məhkum olunmuş şəxs sayılır. Cinayət sayılmayan digər hüquq pozuntularının törədilməsi ilə əlaqədar tətbiq olunan hüquqi sanksiyalar cinayət cəzası ilə müqayisədə xeyli dərəcədə yumşaq tənbeh növləri müəyyən edir.

Onu da qeyd etmək lazımdır ki, cinayətin oxşar hüquq pozuntularından fərqləndirilməsində Azərbaycan Respulikasının Cinayət Məcəlləsinin 14-cü maddəsinin 2-ci hissəsinin göstərişinin mühüm əhəmiyyəti vardır. Həmin maddəyə əsasən cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin əlamətləri formal cəhətdən mövcud olsa da, az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni cəmiyyətə, şəxsiyyətə və yaxud dövlətə zərər yetirmək təhlükəsi yaratmayan əməl cinayət hesab edilmir.

Göründüyü kimi, qanunvericiliyin bu qeydi cinayətin anlayışını daha da dəqiqləşdirir və onun digər hüquq pozuntularından fərqini konkretləşdirir.



***Rəşad Məmmədov,***
***Tovuz Rayon Prokurorunun köməkçisi vəzifəsi üzrə stajor***

# Heç kim ədalətdən qaça bilməyəcək

Tovuz rayon polis şöbəsinin əməkdaşları Azərbaycan Respublikası DİN-nin əmr və göstərişlərini rəhbər tutaraq, hesabat dövründə baş vermiş cinayətlərin açılması, baş verə biləcək cinayətlərin qarşısının alınması,axtarışda olan təqsirləndirilən şəxslərin tutulması və xəbərsiz itkin düşən şəxslərin yerinin müəyyən olunması istiqamətində bir sıra işlər görmüşlər.



Cinayət axtarış bölməsinin əməkdaşları da öz peşə bayramlarını əldə olunan yüksək nəticələrlə qarşıladılar. Beləki, 2016-cı ilin hesabat dövrü ərzində 66 cinayət hadisəsi qeydiyyatda olmuş, həmin cinayətlərdən 59-nun açılması təmin edilmiş, açılma 90.8 faiz təşkil olunmuşdur. 2015-ci ilin 6 ayı ərzində 97 cinayət hadisəsi qeydə alınmış, 60 cinayət hadisəsinin açılması nəticəsində açılma 80 faiz olmuşdur. Cinayətlərin açılmasında 10 faiz artım olmuşdur.

Cari ilin müvafiq dövrü ərzində qeyri-aşkar şəraitdə 38 cinayət hadisəsi qeydə alınmış, 26 cinayət hadisəsinin istintaqı tamamlanaraq məhkəməyə göndərilmiş, 7 cinayət işinin icraatı davam etdirilir, 5 cinayət hadisəsi isə bağlı qalmışdır, bu istiqamətdə açılma 83.9 faiz olmuşdur. Keçən ilin müvafiq dövründə isə qeyri-aşkar şəraitdə 49 cinayət hadisəsi baş vermiş, bunlardan 23 cinayət hadisəsinin açılması nəticəsində açılma 63.9 faiz olmuşdur. Qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılmasında irəlləyiş olmuşdur. 20 faiz fərq etmişdir.

2016-cı ilin 2-ci rübü ərzində 28 nəfər axtarışda olan təqsirləndirilən şəxslərin tutulması istiqamətində keçirilmiş tədbirlər zamanı 16 nəfərin gizləndikləri ünvanlar müəyyən olunmaqla onlar tutulub istintaq orqanlarına təhfil verilmişdir. Nəticədə axtarışda olan təqsirləndirilən şəxslərin tutulması 57.1 faiz olmuşdur. Ağır maddələrlə axtarışda olan şəxslərin tutulması 60 faiz təmin edilmişdi.

2016-cı ilin II rübü ərzində 20 nəfər xəbərsiz itkin düşmüş şəxs barəsində axtarış işi icraatda olmuş, onlardan 10 nəfərinin yeri müəyyən olunaraq gətirilib valideynlərinə təhvil verilmişdir. Beləliklə, itkin düşmüş şəxslərin tapılması 50 faiz təmin olunmuşdur.

2015-ci ildə baş vermiş 2 quldurluq faktının üstü 2016-cı ilin 6 ayı arzində açılmışdır.

2016-cı ilin 6 ayı ərzində 4 fakt qəsdən adam öldürmə cinayəti baş vermişdir. Həmin cinayətlərin üstü isti izlərlə açılmışdır. Həmin cinayətlər aşağıdakılardır:

1. 27.02.2016-cı il tarixdə Tovuz rayonu Qovlar şəhərində 15.09.1962-ci il təvəllüdlü Tovuz rayonu Qovlar şəhər sakini Hüseynov Novruz Cahan oğlu arvadı Nəsibova Sevda Xudayət qızını qəsdən öldürmüşdür.
2. 13.03.2016-cı il tarixdə Tovuz rayonu Aşağı Quşçu kəndi ərazisində 12.08.1994-cü il təvəllüdlü Gəncə şəhər sakini Muradov Sənan Mahir oğlu Tovuz rayonu Aşağı Quşçu kənd sakini Almədədov Qulu Hümbət oğlunu bıçaqla vuraraq qəsdən öldürmüşdür.
3. 13.04.2016-cı il tarixdə Tovuz rayonu Qalaboyun kəndində 10.05.2000-ci il təvəllüdlü, Tovuz rayonu Qalaboyun kənd sakini Ələkbərov Natiq Rəfayıl oğlu həmkəndlisi Əmiraslanov Məüsəd İlqar oğlunu ov tüfəngindən atəş açaraq qəsdən öldürmüşdür.
4. 19.06.2016-cı il tarixdə Tovuz rayonu Aşağı Quşçu kəndində 18.12.1994-cü il təvəllüdlü Tovuz rayonu Aşağı Quşçu kənd sakini Gülməmmədov Ruslan Rafiq oğlu öz bacısı Gülməmmədova Günay Rafiq qızını qəsdən öldürmüşdür.

Mən bütün tovuzluları həmkarlarım adından bir daha əmin edirəm ki, heç bir açılmamış cinayət qalmayacaq, cinayətkarlar isə tutularaq ədalətə təhvil veriləcəkdir.

***Mirnemət Ələsgərov,***
***Tovuz RPŞ-nin CAB-nin baş əməliyyat müvəkkili, polis mayoru***

1-1_tovuz.qxd 22.07.2016 12:33 Page 7



# “AybKitab” layihəsində nəşr olunan kitabların bölgələrdə təqdimatı davam edir

“Aybkitab” layihəsində nəşr olunan kitabların bölgələrdə təqdimatları davam edir. 11 iyul 2016-cı il tarixində Tovuz rayon Heydər Əliyev Mərkəzində Tovuzun gənc yazarı Gülnar Səmanın



bu layihədə çap olunan “Gül” şeirlər kitabının imza günü keçirildi. İyulun 12-də isə Qazax rayon Ədəbiyyat Muzeyində həmin layihədə çap olunan “Qazax mahalının şairləri” almanaxının təqdimatı keçirildi.

Tovuzda təşkil olunan tədbirin aparıcısı Tovuz rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Adil Həsənov müəllif haqqında iştirakçılara məlumat verərək ilk sözü AYB-nin Qazax zona filialının sədri Barat Vüsala verdi. Daha sonra Tovuzun millət vəkili



Qənirə Paşayeva belə bir tədbirin Tovuz rayonunda təşkil olunmasını gənclərə dövlət qayğısının bariz nümunəsi kimi səciyyələndirdi. AYB-nin mətbuat katibi və layihənin rəhbəri Xəyal Rza layihə haqqında ətraflı məlumat verərək, hər bir istedadlı müəllifə layihənin qapılarının açıq olduğunu qeyd etdi. Tədbirdə Qazaxın yazarlarından Mustafa Rasimoğlu, Səhlədar Hidayətoğlu Ağstafanın ziyalılarından Firdovsi Heydərli və.s iştirak etdilər. Tovuz yazarlarından İsa Cavadoğlu, Qədir Hümbət, Brilyant Ateş, Yunus Oruclu, Nazim Əhmədoğlu, Novruz Mizani Hafiz, Maarif Həsənoğlu müəllifə təbriklərini ünvanladılar. Gülnar Səmanın ustadı Əbülfət İslam yetirməsinin bu cür uğurlarına çox sevindiyini bildirib, dəstək olan hər kəsə minnətdarlıq etdi. Tovuz rayon Gənclər və İdman İdarəsinin rəisi Sahib Ələsgərov, Tovuz rayon Mərkəzi Kitabxanasının müdiri Güldərən İbrahimova, “Tovuz” qəzetinin baş redaktoru Çingiz Qəribli də təbriklərini çatdırdı. Müəllifin gənc qələn dostlarından Şahinə Könül, Elməddin Nicat, Ruslan Dostəli, Şəhriyar Seyidoğlu, Taleh Mansur, Rüfət Axundlu, Mehman Rasimoğlu, Günel Bayramsoy, Turanə Turan və.s ona yeni yaradıcılıq uğurları arzuladılar. Sonda müəllif tədbirin yüksək səviyyədə keçməsinə görə əziyyəti keçən hər kəsə təşəkkürünü bildirdi.

Qazaxda keçirilən tədbiri Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açıq elan edərək, qonaqları şairlər məkanı olan Qazaxda salamlamaqdan məmnun olduğunu bildirdi. O, rayonda aparılan quruculuq və abadlıq işləri haqqında məlumat verərək, mədəni sahənin də inkişafının daimi diqqət mərkəzində olduğunu nəzərə çatdırdı. Qeyd etdi ki, bu cür tədbirlərin həyata keçirilməsi üçün dəstəyini əsirgəməyəcək və tədbiri aparmaq üçün sözü AYB-nin Qazax zona filianının sədri Barat Vüsala verdi. Barat Vüsal da filialın uğurları və bölgədə ədəbiyyatın inkişafı haqqında ətraflı məlumat verərək, sözü “aybkitab” layihəsinin müəllifi Xəyal Rzaya verdi. Xəyal Rza layihə çərçivəsində görülən işlər və gələcək planlar haqqında iştirakçıları məlumatlandırdı. Qazaxın qocaman şairi Ələddin İncəli kitabdakı şeirlərin hamısının bir-birindən gözəl olmasının səbəbini də işə məsuliyyətlə yanaşmaqda gördü. Tovuz yazar ziyalıları adından İsa Cavadoğlu, Ağstafa ziyalıları adından Firdovsi Heydərli çıxış etdilər. Qazax zona filialının ədəbi məsləhətçisi Mustafa Rasimoğlu da zəhməti keçən hər kəsə minnətdarlıq etdi. Bölgənin gənc yazarları adından Taleh Mansur çıxış edərək “Hər qazılan qəbrə bir söz basdırın” şeirini söylədi. Tədbirin sonunda Qazax rayon İcra Hakimiyyətinin Başçısı hər kəsə təşəkkür edərək müəllifləri bir daha təbrik etdi.

*Rüfət AXUNDLU*

# NARINGÜL, narın çiçək, narın gül......

Azərbaycan ədəbiyyatının inkişafında, ədəbiyyatımızın qoşma janrının, aşıq yaradıcılığının yenidən dirçəldilməsində və təbliğində sözsüz ki, Tovuz şairlərinin, aşıqlarının rolu danılmaz bir həqiqətdir. Ədəbiyyatımıza bu baxımdan rayonumuz əvəz olunmaz sənət ustadları bəxş etmiş və sayılıb-seçilən neçə-neçə aşıq və şairlər yetişdirmişdir. Aşıq Hüseyn Bozalqanlı, Aşıq Xanlar, Azaflı Mikayıl, Aşıq Əkbər kimi saz ustadları ilə yanaşı, Məstan Günər ,Məmməd İsmayıl, İsa Cavadoğlu, Həsən Mülkülü, Səlim Sinədəftər, kimi şairlərimiz ölkə ədəbiyyatında öz dəst-xətləri ilə tanınmaqdadırlar. Bu korifeylərin yanında yetişmiş gənc şairlər də artıq ölkəmiz səviyyəsində öz dəst-xətləri ilə tanınırlar. Bunlardan biri də gözəl şair və səmimi insan Əkbər Qoşalıdır. Əkbər müəllimi uzun müddətdir tanıyıram və gözəl qələm dostudur. Onun səs-sorağı rayon hüdudlarını yox, ölkə hüdudlarının sərhədlərini belə adlayıb keçmişdir. Ədəbiyyat insanı olmasına baxmayaraq, o, həm də gözəl bir ictimai-siyasi xadimdir. Onun bir ictimaiyyətçi kimi fəaliyyəti bütün ölkəmizin QHT-ləri tərəfindən tanınmaqda və böyük hörmətlə qarşılanmaqdadır.



Bu yazımda ulu öndərimiz H. Əliyevin gənclər siyasətində yaxından iştirak edən ən fəal gənclərdən biri olan Əkbər müəllimin ictimai-siyasi fəaliyyətini yox, onun bədii dünyasını araşdıracağam və oxucuları yenidən Əkbər Qoşalı şeirləri ilə valeh edəcəm. Qoşalının özünə məxsus olan bədii ecazkarlığı olduqca maraqlı və cəzb edicidir. Şair qısa həcmli şeirləri ilə böyük bir fəlsəfi fikiri ortaya qoyur.

İlk öncə vurğulayım ki, Əkbər Qoşalının qələmlə ilk dostluğu və bədii yaradıcılığı ölkəmizin ən ağır dövrlərinə təsadüf etmişdir ki, bu baxımından şairin yaradıcılığı və ictimai fəaliyyətində vətən mövzusu müstəsna rol oynayır. Bu gün Əkbər müəllimin türk dünyası ilə geniş bir şəkildə əlaqəsinin mövcudluğu və əsərlərində türkçülük ənənələrinin təbliği yuxarıda vurğulananların ən bariz nümunəsidir.

Əkbər müəllimin yaradıcılığında sevgi, məhəbbət və ona aid edilən şeirlər çoxluq təşkil etməkdədir ki, bu da gənc nəsil arasında onun şeirlərinin sürətlə yayılmasına, sevilməsinə gətirib çıxarır. Şairin sevgini dindən əvvəl din hesab etməsində həqiqətən böyük bir reallıq mövcuddur ki, buna da heç kəsin sözü ola bilməz. Və şairin “Dindən əvvəl Sevgi özü Din idi” təcnisini oxuculara təqdim edirik:

***Dindən əvvəl Sevgi özü Din idi,***
***Onda aşiq-yardı, onda yar - aşiq.***
***Əvvəl sözün susma idi, din idi,***
***İndi isə susmaq olub yaraşıq.***

***Zaman keçdi, dedik son söz dinindi,***
***Eşq yolunu kəsib durub din indi.***
***Ağılda din, ürəkdə eşq. -Din indi!***
***Bir addım at, bu sərhəddi yar, aşiq!***

***Əkbər, deyir, odur, bitməz qeylü-qal,***
***Dilimdə get, ürəyimdə «qal» ki, «qal»…***
***Qəlb-fərmandar, mən -icraçı, qərar-qal!***
***Nə deyirsən, həmdəm aşıq, yar, aşıq!?.***

Şairliyin bir şam kimi yanan olduğunu və dərdlə, qəmlə bir ömür sürdüyünü vurğulayan Əkbər Qoşalı qısa həcmli şeirində şairliyə böyük bir bədii-fəlsəfi baxış nümaiş etdirir. Qısa həcmli şeirdə böyük məna çaları yatmaqdadır ki, bu da şairin ustalığından irəli gələn bir məsələdir. Həmin şeirində deyilir:

***Şairlər yanar-qovuşar:***
***yandı şam, yandı pərvanə...***
***Sübh ölər, axşam qayıdar,***
***şamlar, dörd yanı pərvanə.***
***Görərlər sevgi azalıb,***
***dönərlər, min söz dolaşıb,***
***Qiyamətə lap az qalıb,***
***düzdürmü yəni, pərvanə?***

Əkbər Qoşalının yaradıcılığı ölkə mətbuatı ilə yanaşı xarici mətubatlarda da işıqlandırılmışdır. Ölkəmizdə çap olunan “Ulu Çinar” sənət-ədəbiyyat jurnalının 2010-cu ilin may ayındakı buraxılışında çap olunmuş məşhur şeirindən bir bəndi sizlərə təqdim edirik:

Narıngül,

***Narın çiçək, narın gül***
***Ağlayanda özün bil,***
***Güləndəsə narın gül…***

Göründüyü kimi, Əkbər Qoşalı yaradıcılığı özünün bədii üslubu ilə geniş oxucu auditoriyasını özünə cəlb etməkdədir. Qoşalı yaradıcılığındakı bədii aləm olduqca güclü və təsir edicidir. Şair dostumuza bədii yaradıcılıq dünyasında uğurlar, qalaq-qalaq əsərlər, yaşanılası dünyada uzun ömür, can sağlığı arzu edirik.

***Mahmud Sadıqov,***
***ADİU-nun magistrantı***

## Yeni kitab

# "Yaşamağa dəydi"




Ramiz Çıraqlının yeni kitabı belə adlanır. Bu kitab müəllifin oxuculara altıncı görüşüdür. Kitabda Tovuzun Düz Qırıqlı kəndində anadan olmuş,17 yaşında könüllü olaraq müharibəyə-Vətəni alman faşizmindən qorumağa getmiş, Berlinəcən böyük, qanlı- qadalı bir döyüş yolu keçərək cəbhədən zabit kimi dönən Hüseyn Dünyamalıyevin keşməkeşli, lakin şərəfli ömür yolundan bəhs olunur.

Kitab 3 bölmədən ibarətdir. Birinci bölmədə qəhrəman azərbaycanlı əsgərin, həmyerlimiz Hüseynin ayrı-ayrı şəhərlərin alınması uğrunda gedən döyüşlərdə göstərdiyi hünərlərdən bəhs olunur. Bu bölmədə verilmiş "Atəş altında "Vağzalı", "Suvorovda sancılan bayraq", "Ay işığında üzən sallar", "21 yaşlı zabit və s oçerklərdə təsvir olunan canlı döyüş səhnələri kitabı daha da oxunaqlı edir. "Atəş altında "Vağzalı"- da maraqlı bir epizod verilmişdir. Əsgərlər səngərdə düşmənin hücumunu dəf etməyə hazırlaşırlar. Təpədən-dırnağacan silahlanmış almanlar bir azdan hücuma hazırlaşırlar. Birdən haradasa qoyulmuş radioqəbuledicidə "Vağzalı" rəqsi səsləndirilir.

Səngərdə düşməni qarşılamağa hazırlaşan Hüseyn özündən asılı olmayaraq ayağa qalxıb başlayır rəqs etməyə. O, bir anlıq hər şeyi unudaraq özünü doğma Düz Qırıqlıda toyda hiss edir. Düşmənin açdığı atəş nə musiqini, nə də Hüseyni susdura bilir. Onun bu hərəkəti əsgərlərin əhval-ruhiyyəsini daha da yüksəldir. Komandirlər bunu hiss edib "hücum" əmri verirlər. Düşmən məğlub olur. Onu məğlub edən təkcə əsgərlərimizin qəhramanlığı deyil, həm də milli Azərbaycan musiqisinin qüdrətidir.

"Ay işığında üzən sallar" adı yazıda isə Hüseynin bacarığı sayəsində əsgərlərimiz Dnepr çayını sağ-salamat keçərək düşməni məğlub edirlər.

Kitabin ikinci bölüməsində isə onun həyatının müharibədən sonrakı dönəmindən bəhs olunur. Burada onun dostlarının, yoldaşlarının, övladlarının və yaxınlarının xatirələri toplanmışdır. Hər bir xatirə qəhrəmanın ömrünün bir anını yada salır. Biz burada yeni bir obraz- vicdanlı dövlət məmuru, səxavətli azərbaycanlı kişisi, nümunəvi ata Hüseyni görürük.

On övlad böyüdüb boya-başa çatdırmış Hüseyn kişi onların hamısına ali təhsil verib, ev-eşik sahibi etmişdir. Gəncliyində müharibənin xarabazarlığa çevirdiyi kəndləri, şəhərləri görən Hüseyn qələbədən sonra memar olmaq, bu xarabalıqların yerində yeni şəhərlər salmaq arzusu ilə yaşayır. Ancaq, ailə vəziyyəti ona bu arzusunu reallaşdırmağa imkan vermir. Ancaq o öz arzusuna başqa cür çatır. Dörd övladı memar olur, atalarının əvəzinə onlar qurub-yaradırlar.

Övladlarının xatirələrində biz ailə tərbiyəsinin, valideyn-övlad məhəbbətinin ən gözəl nümunələri ilə tanış oluruq. Ata övladlarına necə bağlıdırsa, övladlar da valideynlərinə eyni münasibəti göstərirlər. Bizə belə gəlir ki, bu kitab gənc nəslin tərbiyəsində, vətənpərvərlik ruhunda böyüməsində mühüm rol oynayacaqdır.

Kitabın sonuncu bölməsi qəhrəmanımızın ömrünün müxtəlif çağlarını yaddaşlara hopduran fotoreportajlardan ibarətdir. Ümidvarıq ki, R. Çıraqlının bu yeni kitabı da oxucular tərəfindən maraqla qarşılanacaqdır.

***Əfsanə Əfqanlı***

# Ürəklərdə yeri qalacaq



Onların sıraları get-gedə seyrəlir. Tədbirlərdə, bayramlarda, xüsusilə də 9 May Qələbə Günündə üzümüz, gözümüz öyrəşdiyi sinəsi orden və medallarla dolu bu insanlar bizim üçün çox əzizdir. Onlar bizim üçün bir örnəkdir.

Bu günlərdə -10 iyul 2016-cı il tarixdə bu şərəfli insanlardan biri də aramızdan öz köçünü çəkdi. Nəinki təkcə doğulduğu Qəribli kəndində, eləcə də bütün Xınna dərəsində İsrafil baba kimi tanınan bu el ağsaqqalı hamımızın itkisidir.

Həsənov İsrafil Binnət oğlu 1922-ci ildə Tovuz rayonun Qəribli kəndində anadan olmuş, 1939-cu ildə Gəncə pedaqoji texnikumunda təhsil almış, 1941-ci ildə Böyük Vətən müharibəsinə yollanmış, hərbi xidmət dövründə desant-paraşütcü kimi Avropa şəhərlərinin faşistlərdən azad edilməsində fəal iştirak etmişdir(xüsusilə Avstriyanın alınmasında). 1945-ci il mayın 15-də hərbi xidmətdən qayıtdıqdan sonra Qazax müəllimlər seminariyasını bitirmiş və doğma rayonda-Çirkinli kəndində, sonralar Şamlıq orta məktəbində 52 il rus dili müəllimi işləmişdir. Musiqini sevən bir insan kimi mükəmməl tar ifaçısı olmuşdur.

İsrafil müəllim qayğıkeş və məsuliyyətli ailə başçısı olmuşdur. 70 il birgə ömür sürdüyü həyat yoldaşı, Azərbaycan dili və ədəbiyyatı müəlliməsi olan Şahmalıyeva Pakizə ilə 4 övlad, 15 nəvə, 24 nəticə sahibi olmuşlar.

Bu gün hamı kimi biz də deyirik: "Ruhun şad olsun, gorun nurla dolsun, əziz insan!"

## Allah rəhmət eləsin!

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov və İcra aparatının kollektivi,

**Bəşir Ələkbərovun**

vəfatından kədərləndiklərini bildirir, mərhum ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov və İcra aparatının kollektivi Cəmaləddin Abbasova anası,

**Səriyyə xanlmın**

vəfatından kədərləndiklərini bildirir, mərhum ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq zeynalov və İcra Aparatının kollektivi Böyük Vətən Müharibəsi veteranı,

**İsrafil Binnət oğlu Həsənovun**

vəfatından kədərləndiklərini bildirir,mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Tovuz Rayon Təşkilatı və Tovuz Şəhər bələdiyyəsini kollektivi Cəmaləddin Abbasova , anası

**Səriyyə xanımın**

Vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məzahir Bayramov və Tovuz şəhər bələdiyyəsinin kollektiv Cabir Rüstəmova, əzizi **Arzu Aslanovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Məzahir Bayramov və Tovuz şəhər bələdiyyəsini kollektivi Vüqar Həsənova, qardaşı

**Yalçın Həsənovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Çingiz Qəribli və"Tovuz" qəzetinin kollektivi Elcan Musayevə, bacısı

**Fatma Musa qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz RİHB-nin Qəribli İƏD üzrə nümayəndəliyinin və Qəribli bələdiyyəsinin kollektivi,Böyük Vətən Müharlbəsi veteranı

**İsrafil Binnət oğlu Həsənovun**

vəfatından kədərləndiklərini bildirir,məhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

## Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosu

İyunun 23-dək ölkə ərazisində anomal isti hava şəraitinin davam edəcəyi, havanın maksimal temperaturunun 35-40, bəzi yerlərdə 43 isti. Uzun müddət qızmar günəş altında olmaq məsləhət deyil.

***Hidrometeoroloji Proqnozlar Bürosu***

## Elan

Dövlət Torpaq və Xəritəcəkmə Komitəsi Tovuz rayon şöbəsi tərəfindən Məmmədov Cahan Cahangir oğluna verilmiş torpağın mürkiyyətinə verilməsinə dair JN-036 A saylı şəhadətnaəmə itdiyi üçün etibarsız sayılır.

## Hörmətli oxucular!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı olan

**"Tovuz"**

qəzetinə 2016-cı ilin ikinci yarısı üçün abunə yazılışına başlanıb. Qəzetin yarım illik abunə qiyməti 20 manatdır. Qəzetə "Kapitalbank"ın Tovuz filialında abunə yazılmaq olar.

**BAŞ REDAKTOR**
**Çingiz Qəribli**

**Ünvanımız:**
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: 315-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*
*Sifariş603. Tiraj: 1300.*